UOT 94

QABİL BƏŞİROV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,t.ü.f.d.
besirovqabil82@gmail.com

TALEH CƏFƏROV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosent əv., t.ü.f.d.
taleh.ceferov.83@mail.ru

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA İMPERİYASININ ƏRAZİSİ, ƏHALİNİN ETNİK, DİNİ TƏRKİBİ VƏ MİLLİ MƏSƏLƏ

DOI: https://doi.org/10.36719/2708-065X/105/101-105

Məqalədə XX yüzilliyin əvvəllərində dünyanın ən böyük imperiyalarından biri olan Rusiyada əhalinin etnodini tərkibi, ictimai-siyasi şərait araşdırılır. Konkret faktlar əsasında Rusiyanın yeni ərazilər zəbt etməsi yolu ilə öz sərhədlərini genişləndirməsi, imperiya həyatının müxtəlif sahələrində mövcud olan ziddiyyətlərin yumşaldılması cəhdləri, qeyri-rusların öz hüquqları uğrunda mübarizəsi məsələləri öyrənilir.

Açar sözlər: imperiya, siyasi quruluş, milli məsələ, islahat, hüquq bərabərliyi, inqilab.

Giriş. Çoxmillətli müstəmləkəçi imperiyalar tarixində özünəməxsus yer tutmuş Rusiya imperiyasının tarixinin ən mürəkkəb, ziddiyyətli dövrlərindən birini XX əsrin əvvəlləri təşkil edir. Bu dövr imperiyada sosial hərəkatların baş verdiyi, milli münasibətlər sahəsində mövcud olan ziddiyyətlərin dərinləşdiyi bir dövrdür. Bu dövr həm də idarəetmə, milli siyasət, sosial-iqtisadi, mədəni həyatda bir sıra dəyişikliklərin həyata keçirildiyi bir dövrdür.İmperiya həyatının müxtəlif sahələrində müəyyən uğurlar əldə edilmiş olsa da,islahatların yarımçıq xarakter daşıması ümumi inkişaf istiqamətlərini dəyişdirə bilmədi,növbəti sosial partlayışlar üçün şərait yaratdı.

XX əsrin əvvəllərində Rusiya imperiyasının milli siyasətinin, əhalisinin etnodini tərkibinin tədqiq olunması, sosial həyat probleminin nəzərdən keçirilməsi qeyd olunan dövrün hadisələrinə münasibət bildirməyə, qiymətləndirməyə kömək edir, dövrlə bağlı əsas faktların sistemləşdirilməsinə, tarixi biliklərin konkretləşdirilməsinə kömək edir. Tarixi təcrübə göstərir ki, keçmiş hadisələri öyrənmədən, nəticə çıxarmadan, tarixi biliklərə malik olmadan cəmiyyətin inkişaf yollarını müəyyənləşdirmək, qarşıya çıxacaq problemləri həll etmək mümkün deyil.

Ərazisinə və əhalisinin sayına görə XX yüzilliyin əvvəllərində dünyanın ən böyük imperiyalarını Böyük Britaniya və çar Rusiyası təmsil edirdi. Müstəmləkə torpaqları ilə birlikdə Böyük Britaniyanın ərazisi 30 mln. kv. km., əhalisi isə 400 milyon nəfər idi. Bu dövrdə 20 mln. kv. km. əraziyə malik olan Rusiyanın əhalisi 1897-ci ilin məlumatına görə 129 mln. nəfər idi (1, s. 6).

Hər iki imperiya belə geniş ərazilərə əsrlər boyu aparılmış işğalçılıq siyasəti nəticəsində nail olmuşdular. Rusiyanın XVI əsrin ortalarından tətbiq etdiyi fəal işğalçılıq siyasəti ilk növbədə, Volqaboyu və Uralətrafı ərazilərin, sonra isə Sibir, Ukrayna və Belarusiyanın, Qara dənizin şimal sahillərinin, Baltikyanı torpaqların, Polşanın bir hissəsinin, Finlandiya, Qafqaz və Orta Asiyanın işğal olunmasına gətirib çıxartdı. XVI əsrin 30-cu illərinin əvvəlində 2800 min kv. km. əraziyə (6, s. 226) malik olan Rus dövlətinin ərazisi əsrin sonlarında artıq 5400 min kv. km.-ə çatmışdı (9, s.74).

I Dünya müharibəsi ərəfəsində sərhədləri şimalda Şimal Buzlu okean, cə-nubda Qara dəniz, qərbdə Baltik dənizi, şərqdə isə Sakit okean sahillərinə çatan Rusiya kontinental bir imperiya idi. İmperiyanın ümumi ərazisinin üçdə bir hissəsi Avropa Rusiyasının, üçdə iki hissəsi isə Asiya Rusiyasının payına düşürdü. Rusiyanın Asiyadakı mülklərinin bəzisi çox geniş idi. Belə ki, 1914-cü ildə Avropa Rusiyasının ərazisi 4230526,6 kvadrat verst idisə, Sibirin ərazisi 10996345,5 kvadrat verst idi (1, s. 9). XIX əsrdə qazax çöllərində və Orta Asiyada işğal olunmuş ərazilər hesabına yaradılmış Türküstan general-qubernatorluğunun ərazisi1533255 kvadrat verst idi ki, (3, s. 116) bu da birlikdə götürüldükdə Almaniya, Fransa və Avstriya-Macarıstan ərazilərinə bərabər idi.

İmperiyanın ərazisi əhalinin milli tərkibi nəzərə alınmadan quberniya və vilayətlərə bölünürdü. Belə bölgü məqsədyönlü idi, çünki bu, eyni bir xalqın yaşadığı ərazinin bir neçə quberniya arasında bölüşdürülməsinə gətirib çıxarırdı, bu isə həmin xalqın siyasi, iqtisadi və mədəni əlaqələrinə mənfi təsir göstərirdi, onların birliyini pozurdu.

XX əsrin əvvəllərində imperiyanın ərazisi 78 quberniyaya, 21 vilayətə və 2 müstəqil dairəyə bölünmüşdü. Əhalinin sayı 1897-ci ildəki 129 milyon nəfərdən 1914-cü ildə 178 milyon nəfərə çatmışdı. Burada təbii artımın da rolu böyük olmuşdu. İmperiyada 1908-1913-cü illərdə əhalinin təbii artımı 19 faiz olmuşdu, bu isə dünyada ən yüksək göstəricilərdən biri idi (4, s. 62).

İmperiyanın Avropa və Asiya hissələrində əhalinin məskunlaşma səviyyəsi tamamilə fərqli idi. Belə ki, əhalinin ¾ hissəsi Avropa Rusiyasında yaşayırdı. 1914-cü ildə Rusiyada hər kvadrat verstə 8,5 nəfər düşürdü. İmperiyanın mərkəzində, Polşa və Ukraynada əhali daha sıx məskunlaşmışdı (5, s.15). Sibir, Orta Asiya və çöl vilayətlərində isə əhalinin sıxlığı az idi.

Əhalinin sayına görə Rusiya imperiyası Böyük Britaniya və Çindən sonra dünyada üçüncü yeri tutsa da, əhalinin sıxlığına görə dünyanın bir sıra ölkələrindən geri qalırdı. Hər kvadrat verstə Fransada 83,1, İngiltərədə isə 155,7 nəfər düşürdü.

Rusiya çoxmillətli bir imperiya idi. 1897-ci ildə keçirilmiş siyahıyaalmaya görə, əhali 146 dil və dialektdə danışırdı. Əhalinin 65,5 faizini, yaxud 83,8 milyonunu slavyan xalqları (ruslar, belaruslar, ukrainlər) təşkil edirdi. Bunun 55,6 milyonu rus, 5,9 milyonu belarus, 22,3 milyonu isə ukrain idi. Avropa Rusiyasında yaşayan çoxsaylı xalqlara polyaklar (7,9 milyon), yəhudilər (5 milyon) də daxil idi. Orta Asiyada qazaxlar və özbəklər, Şərqi Sibirdə yakutlar, Qafqazda azərbaycanlılar və gürcülər çoxsaylı xalqlar idi. Slavyan xalqları Sibirdə də çox idi, bu isə çarizmin köçürmə siyasəti ilə də bağlı idi. Buradakı əhalinin 80 faizini slavyanlar təşkil edirdi.

Əhalinin sayına görə slavyanlar imperiyada ilk yerdə olsalar da, onlar ümumi əhalinin yarıdan azını təşkil edirdilər. İmperiya əhalisinin 56 faizini qeyri-ruslar təşkil edirdi. Rus olmayan xalqlar imperiyanın əsasən əyalətlərində - Polşa, Ukrayna, Belarusiya, Krım,Qafqaz, OrtaAsiya və Sibirdə, Baltikyanı ərazilərdə yaşayırdı.

Rusiya dünyanın ən böyük xristian ölkələrindən biri idi. Əhalinin 80 faizi xristianlığın müxtəlif təriqətlərinə sitayiş edirdi. Lakin aparıcı rol pravoslavların əlində idi. Belə ki, imperiya əhalisinin 70 faizini pravoslavlar (rus, ukrain, belarus, gürcül və s.) təşkil edirdi.Pravoslavlığın üstün mövqeyi rəsmən də tanınmışdı. Ən əhəmiyyətli dövlət vəzifələrini də yalnız pravoslavlar tuta bilərdi.

Əhalinin sayına görə, slavyanlardan sonra türk xalqları gəlirdi. İmperyada onların sayı 12 milyon nəfər idi. Dini mənsubiyyətinə gorə də əhalinin əhəmiyyətli bir hissəsini müsəlmanlar təşkil edirdi. Müsəlmanlar pravoslavlardan sonra ikinci yerdə idilər. XIX əsrin ikinci yarısında Rusiyadan asılı vəziyyətə düşmüş Buxara əmirliyi və Xivə xanlığı istisna olmaqla imperiyada 13,9 milyon müsəlman var idi. Bu isə imperiya əhalisinin 11 faizi demək idi. Müsəlmanların 3,5 milyonu Avropa Rusiyasında, 7 milyonu Orta Asiyada, 3,2 milyonu Qafqazda yaşayırdı. Sibirdə isə cəmi 122 min müsəlman var idi (1, s.7). İmperiya əhalisinin 3,1 faizini iudaistlər, 2 faizini protestantlar, 1,2 faizini isə katoliklət təşkil edirdi.

XIX əsrin axırları, XX əsrin əvvəllərində həyata keçirilmiş bəzi islahatlar imperiyanın siyasi, sosial-iqtisadi və mədəni həyatında müəyyən canlanma yaratmışdı, lakin o, aqrar ölkə idi. Rusiyanın dünya sənaye məhsulları istehsalındakı payı artmışdı. Lakin imperiyanın milli gəlirinin yalnız 20 faizi sənayenin payına düşürdü. Kənf təsərrüfatının maddi-texniki bazası da müəyyən qədər möhkəmlənmişdi. İmperiya əhalisinin 75 faizi kənd təsərrüfatında çalışırdı. Milli gəlirin 55 faizini kənd təsərrüfatı məhsulları istehsalı təşkil edirdi. Dünya üzrə istehsal olunan taxılın 25 faizi Rusiyanın payına düşürdü (7, s.14).

Rusiya siyasi quruluşuna, sosial-iqtisadi və mədəni inkişaf səviyyəsinə görə Qərbin bəzi dövlətlərindən geri qalırdı. Qərbin əksər ölkələrində feodal monarxiyası keçmişdə qalmışdı, onlarda parlament yaradılmışdı. XIX əsrin axırlarına kimi Qərb ölkələrində konstitusiyalı monarxiya formalaşmışdı. Rusiyada isə hələ də mütləq monarxiya mövcud idi, xalqlar öz həyatlarını müstəqil surətdə qurmaq imkanına malik deyildilər. Qərbdə insan hüquq və azadlıqlarına hörmət, qanun qarşısında hamının bərabərliyi prinsipləri tətbiq olunurdu, orta təbəqənin formalaşması prosesi gedirdi, bu təbəqəyə daxil olan qulluqçular, xırda burjuaziya, elm və mədəniyyət xadimləri liberal demokratiyanın dayağı kimi

çıxış edərək sabitlik, davamlı islahatlar tərəfdarları kimi çıxış edirdilər. Rusiyanın siyasi-sosial həyatında isə bunları müşahidə etmək mümkün deyildi. İmperiyada iri burjuaziya iqtisadi cəhətdən kifayət qədər güclü olsa da, siyasi azadlıqlara malik deyildi.

Rusiya aqrar ölkə olaraq qalırdı. 1897-ci ildə əhalinin 13 faizi, 1914-cü ildə isə 15 faizi kəndlərdə yaşayırdı. XX əsrin əvvəllərində İngiltərədə əhalinin 78, ABŞ-da 42, Frransada isə 44 faizi şəhərlərdə yaşayırdı (8, s.17).

Avropa ölkələrində əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, iş və məişət şəraitinin yaxşılaşdırılması, əmək haqqının artırılması məqsədi ilə fəal sosial siyasət yeridilirdi. Lakin Rusiya adambaşına düşən ərzaq məhsullarına görə Qərbin bir sıra ölkələrindən geri qalırdı. Əmək haqqı az idi, iş gününün uzunluğu çox idi. Təhsilin inkişafı, tibbi xidmətin səviyyəsinə görə də Rusiya geri qalırdı. Əhalinin böyük əksəriyyəti savadsız idi, təhsilə cüzi vəsait ayrılırdı.

Rusiyanın tətbiq etdiyi müstəmləkəçilik siyasəti imperiyanın sərhədləri daxilində yaşayan xalqların siyasi,sosial-iqtisadi və mədəni inkişafı üçün buxova çevrilmişdi. «Rusiya ruslar üçündür!» şüarını əsas prinsip kimi qəbul edən hökumət milli rayonlarda ruslaşdırma, zorla xristianlaşdırma siyasəti yeridirdi, elm və təhsilin inkişafına mane olmaqla əhalini cəhalətdə saxlamağa çalışırdı, yerlərdə rus burjuaziyasının mövqeyinin möhkəmləndirilməsi siyasəti yeridərək yerli milli burjuaziyanın güclənməsinin qarşısını almağa çalışırdı. Milli rayonlarda kargüzarlıq işləri rus dilində aparılırdı, ana dilində məktəblərin açılmasına müxtəlif yollarla maneçilik törədilirdi. Ana dilində təhsil almaq,dini etiqad azadlığı,onlara məxsus olan torpaq sahələrinin toxunulmazlığını tələb edən xalqlar imperiyanın siyasi quruluşunda da dəyişikliklərin edilməsini isyəyirdilər. Bu məqsədlərlə onlar özlərinin siyasi təşkilatlarını yaradırdılar. Milli partiyaların proqramlarında Rusiyada demokratik federativ respublikanın yaradılması məsələsi əksini tapırdı. Onlar imperiyanın bütün xalqlarının hüquq bərabərliyini tələb edirdilər.

XX əsrin əvvəllərində imperiyanın ictimai-siyasi həyatında baş verən hadisələr hökuməti milli məsələnin həlli üçün yeni yollar axtarmağa məcbur edirdi. Düzdür, hökumət dairələrində milli məsələnin həllinə münasibətdə vahid fikir yox idi, lakin onlar başa düşürdülər ki, milli məsələ ilə bağlı sərt siyasətin davam etdirilməsi milli ucqarlarda ziddiyyətlərin daha da dərinləşməsinə, qarşıdurmanın güclənməsinə səbəb olacaq.

1904-cü ildə hökumət milli münasibətlər sahəsində müəyyən islahatlar həyata keçirməyə cəhd etdi. Bu siyasətin əsasında iki prinsip dururdu: bütün xalqların dini inamlarına hörmətlə yanaşmaq və hüquq bərabərliyi. Çarın 1904-cü ilin dekabr ayında verdiyi fərmanda dini məsələ sahəsindəki məhdudiyyətlərin ləğv olunması,imperiyanın müxtəlif xalqlarının hüquqlarını məhdudlaşdıran qanunlara yenidən baxılması məsələsi öz əksini tapırdı. Sinodun ober-prokuroru K.R.Pobedonosov milli-dini siyasətin dəyişdirilməsinə qarşı çıxsa da, Nazirlər Kabinetinin sədri S.Vitte onun müqavimətini aradan qaldıra bildi. 1905-ci ilin aprelin 17-də verilən fərmanda dini əlamətlərə görə hüquqi məhdudiyyətlərin aradan qaldırılması nəzərdə tutulurdi. Lakin 1905-ci ilin yanvarında başlanan və getdikcə dərinləşən inqilab şəraitində hökumətin qeyd olunan fərmanı sakitlik yarada bilmədi. İmperiyanın mərkəzi rayonları ilə yanaşı milli ucqarlarda da mübarizə genişlənirdi. Pravoslavlıqdan kütləvi surətdə imtina edilməsi genişıənirdi.Hökumətin bunun qarşısını almaq cəhdləri isə vəziyyəti daha da ağırlaşdıraraq millidini hərəkatı genişləndirirdi.

1905-ci ilin oktyabrın 17-də qəbul edilmiş «Manifest»də imperiya əhalisinə şəxsiyyət toxunulmazlığı, söz, mətbuat, yığıncaqlar, ittifaqlar azadlığı, əvvəllər seçki hüququ olmayanlara bu hüququn veriləcəyi vəd edilirdi. Hökumətin elan etdiyi tədbirlər məcburi və deklarativ xarakter daşısa da milli hərəkatın canlanmasına təkan verdi, siyasi partiyaların sayını artırdı. Belə bir şəraitdə kökumət ucqarlarda inqilabi hərəkatı milli çalarlardan məhrum etməyə, yerli elitanı hökumətin müttəfiqinə çevirməyə cəhd etdi. Baş nazir Finlandiya, Polşa, Qafqaz, yəhudi zadəganları ilə danışıqlara başladı. Nəzərdə tutulurdu ki, Polşa və Finlandiyada təhsil sistemində rus dilindən istifadə məhdudlaşdırılacaq, yəhudilərə oturaq həyata keçmələri üçün güzəştlər ediləcək.

Çar 1905-ci ilin oktyabrın 22-də ümumi və bərabər hüquqlar əsasında fin seyminə seçkilər haqqında fərman verdi. Bu fərman qadınlara da seçki hüququ verirdi. Bu dövrdə Litva da bütün əhalinin hüquq bərabərliyini, qadınlara seçki hüququnin verilməsini tələb etməklə yanaşı,çar ordusuna əsgər göndərməkdən imtina edirdi. Ukrayna isə milli-mədəni muxtariyyat istəyirdi. Ümumrusiya müsəlman-

larının təmsilçisi kimi çıxış edən «Müsəlman İttifaqı» partiyası parlamentli pespublika mövqeyindən çıxış edirdi. Latışlar və estonlar imperiya ilə federativ əlaqələrə malik olan muxtar respublika ideyasının tərəfdarları kimi çıxış edirdilər.

Qəbul edilmiş qərarlar milli münasibətlər sahəsində mövcud olan bəzi problemlərin həlli, gerilliyin aradan qaldırılması üçün şərait yarada bilərdi. Lakin bundan istifadə olunmadı.

I rus inqilabının məğlub olması irticanı yenidən gücləndirdi.Baş nazir Stolıpinin təklifi ilə III Dumanın qəbul etdiyi qanuna əsasən Finlandiyaya aid olan bütün əsas məsələlər Dumada müzakirə olunmali idi. Fin seymi qanunvericilik hüququndan məhrum edildi. Dumada olan bəzi qüvvələr ukrain, belarus və yəhudilərin ana dilində təhsil almaq hüququnun ləğv edilməsinə nail oldilar.

Çar hökuməti islam dininə etiqad edənləri də təhlükəli hesab edirdi. Baş nazir Stolıpin yazırdı ki, «gərgin günlərdə qiyamçı Zaqafqaziyanın, zahirən sakit görünən Volqaboyunun, və narahat Türküstanın «özgə» xalqları inqilab cəbhəsində olacaqlar» (2, s.376). İmperiyada qeyri-rus xalqlara təzyiq getdikcə güclənirdi, hökumət milli hərəkatı zəiflətmək məqsədilə onlar arasında münaqişə yaratmaq siyasəti yeridirdi.

Nəticə. XX əsrin əvvəllərində Rusiya imperiyası siyasi quruluşuna, sosial-iqtisadi və mədəni inkişaf səviyyəsinə görə Qərbin bəzi dövlətlərindən geri qalırdı. Rusiyadan fərqli olaraq, Qərbin əksər ölkələrində feodal monarxiya rejimləri parlament üsul-idarəsi ilə əvəz olunmuşdu. Rusiyada isə hələ də mütləq monarxiya mövcud idi. İmperiyada iri burjuaziya iqtisadi cəhətdən kifayət qədər güclü olsa da, siyasi azadlıqlara malik deyildi. Rusiya aqrar ölkə olaraq qalırdı. Rusiya adambaşına düşən ərzaq məhsullarına görə Qərbin bir sıra ölkələrindən geri qalırdı. Hökumət milli hərəkatı zəiflətmək məqsədilə onlar arasında münaqişə yaratmaq siyasəti yeridirdi.

ƏDƏBİYYAT

1. Bəşirov Q.İ. Türk xalqları tarixi. XX əsrin I yarısı. Bakı, ADPU, 2022. 212 s.
2. SSRİ tarixi. II hissə (1861-1917). Tərcümənin elmi redaktoru A.M.Atakişiyev. Bakı, «Maarif»,1982. 562 s.
3. Абраров С.А. История Узбекистана.Ташкент, ГТУ, часть 1, 2007, 148 с.
4. История России XX-начало XXI в. / Под ред.А.В.Милова. М., «Эксмо, 2006, 960 с.
5. Кацва А.А. История России. XX век. М., «Просвещение», 2013, 411 с.
6. Материалы по истории татарского народа. Отв.ред.С.Х.Алишев. Казан, ИЯЛИ, 1995, 498 с.
7. Отечественная история. XX в./ Отв. ред. А.Ф.Паломощнов. Дон ГАУ, 2015, 268 с.
8. Поцелуев В.А. История России XX столетие. М. «Владос», 1997, 512 с.
9. Сахаров А.М. Образование и развитие Российского государство. М., «Высщая школа», 1969, 224 с.

ГАБИЛ БАШИРОВ
д.ф.и.н., доцент
Азербайджанского Государственного Педагогического Университета

ТАЛЕХ ДЖАФАРОВ
д.ф.и.н., и.о. доцент
Азербайджанского Государственного Педагогического Университета

ТЕРРИТОРИЯ РОССИЙСКОЙ ИМПЕРИИ,ЭТНИЧЕСКИЙ И РЕЛИГИОЗНЫЙ СОСТАВ НАСЕЛЕНИЯ И НАЦИОНАЛЬНЫЙ ВОПРОС В НАЧАЛЕ XX ВЕКА.

В статье рассматривается этнорелигиозный состав населения и общественно-политические условия в России, одной из крупнейших империй мира в начале XX века. На основе конкретных фактов показано расширение Россией своих границ за счет завоевания новых территорий, попытки смягчения противоречий в различных о бластях жизни империи, изучается борьба нерусского населения за свои права.

Ключевые слова: империя, политическое устройство, национальный вопрос, реформа, равноправие, революция.

GABIL BASHIROV
PhD, Associate Professor of Azerbaijan State Pedagogical University

TALEH JAFAROV

PhD, Associate Professor of Azerbaijan State Pedagogical University

THE TERRİTORY OF THE RUSSİAN EMPİRE, THE ETHNİC AND RELİGİOUS COMPOSİTİON OF THE POPULATİON AND THE NATİONAL İSSUE AT THE BEGİNNİNG OF THE 20TH CENTURY

The article examines the ethno-religious composition of the population and socio-political conditions in Russia, one of the larqest empires in the world at the beginning of the 20 th century. On the basis of concrete fakts, Russias ekspansion of its borders by conquerinq new territories, attempts to soften the contradictions in various areas of the empires life and non-Russians struggle for their rights are studied.

*Keywords:*empire, political, structure, national, issue, reform, eguality of rights, revolution.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.e.d. Sevinc Əliyeva, t.e.d. İsmayıl Məmmədov.